**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**SƏRƏNCAMI**

**№ 226** **«26» Dekabr 2024-cü il**

**Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasının və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılmasının təmin edilməsi tədbirləri haqqında**

"Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2024-cü il tarixli 371 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.4-cü, 3.15.5-ci bəndlərinin tələblərinə əsasən

**qərara alıram:**

1. 2007-ci ildə doğulmuş və çağırış günündədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1990–2006-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasını təmin etmək məqsədilə həqiqi hərbi xidmətə çağırışın keçirilməsinə rəhbərlik və nəzarət üzrə yaradılmış çağırış komissiyasının və çağırış komissiyasının işinə cəlb edilmiş həkim mütəxəssislərin fərdi tərkibi aşağıdakı kimi təsdiq edilsin:

***Çağırış komissiyasının tərkibi:***

| | | |
|---|---|---|
| H.Quliyev | – | Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi, polkovnik, komissiyanın sədri |

Scanned with CamScanner

| | | |
|---|---|---|
| H.Babayev | – | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, komissiyanın sədr müavini |
| R.Qocayev | – | Rayon Polis İdarəsi rəisinin xidmət üzrə müavini, polis kapitanı, komissiyanın üzvü |
| Ş.Əkbərova | – | Hərbi həkim komissiyasının sədri, terapevt, komissiyanın üzvü |

***Çağırış komissiyasının işinə cəlb edilmiş həkim mütəxəssislərin fərdi tərkibi:***

| | | |
|---|---|---|
| Ş.Əkbərova | – | Terapevt |
| N.Abbasova | – | Cərrah |
| L.Məlikova | – | Nevropatoloq |
| İ.Əzizova | – | Dermatoveneroloq |
| R.İmanov | – | Otorinolarinqoloq |
| O.Fərəcli | – | Psixiatr |
| T.Fətəliyeva | – | Oftalmoloq |
| L.Fərruxova | – | Stomatoloq |
| S.Xanəliyeva | – | Tibb bacısı |
| X.Salahova | – | Komissiyanın katibi |

3. Rayon çağırış komissiyasına tapşırılsın ki, vətəndaşların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırışını "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təşkil etsin.

4. Rayonun idarə, müəssisə və təşkilat rəhbərlərinə, MKİS-nin rəislərinə və Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi üzrə qəsəbə nümayəndələrinə tapşırılsın ki, vətəndaşların həqiqi hərbi xidmətə çağırışının keçirilməsi işinin təşkili ilə bağlı SHXÇDX-nin Binəqədi Rayon İdarəsinə hərtərəfli köməklik göstərsinlər.

5. Hərbi-həkim komissiyasının sədrinə tapşırılsın ki, Rayon Çağırış Komissiyasının müvafiq tibbi texnika, alətlər və digər ləvazimatlarla təchiz edilməsinə, həkim mütəxəssislərin Rayon Çağırış Komissiyasında işə davamiyyətinə və çağırışçıların tibbi şəhadətləndirilməsinin keyfiyyətli keçirilməsinə nəzarəti təmin etsin.

6. Binəqədi Rayon Polis İdarəsinə, İdarənin 4-cü, 5-ci, 6-cı, 7-ci, 40-cı və 43-cü Polis Bölmələrinə tapşırılsın ki, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışını həyata

Scanned with CamScanner

keçirməkdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinə hərtərəfli köməklik göstərsinlər, müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınan şəxslərin axtarışının həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsində ictimai asayişin təmin olunmasını təşkil etsinlər.

7. Çağırışın gedişatı ilə əlaqədar olaraq Rayon İcra Hakimiyyətinə vaxtaşırı məlumat verməklə, Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsinə nəzarət Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi, polkovnik Quliyev Hüseyn Ziyad oğluna tapşırılsın.

8. Sərəncamdan çıxarış mətndə qeyd olunan bütün qurumlara göndərilsin.

**Elxan Allahverdiyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Scanned with CamScanner